

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 215 (23.126)

9 noyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də hər il 9 noyabr tarixinin Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır.*

*9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür*

## Üçrəngli dövlət bayrağımız milli qürurumuzdur

Dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız həm də milli qürurumuzdur. Çünki milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir.

Ötən əsrdə Azərbaycan xalqı iki dəfə – 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə etmişdir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamış və müstəqil dövlətə xas olan atributlar təsis edilmişdir. Üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Müvəqqəti Hökumətinin 1918-ci il 24 iyun tarixli qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı kimi qəbul olunmuşdur. 1918-ci il noyabrın 9-da isə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Bakıda keçirilən iclasında Fətəli xan Xoyski milli bayraq haqqında məruzə ilə çıxış etmişdir. Müzakirələrdən sonra yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Dövlət Bayrağı kimi qəbul edilmişdir.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız ikinci dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılmışdır. Həmin sessiya Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə edilməsi, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbulu ilə əlamətdar olmuşdur. Məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilmişdir. "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin öz əli ilə yazıb imzaladığı Ali Məclisin qərarında deyilirdi:

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".*

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il fevral ayının 5-də üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında normativ aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir.

Ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə olan münasibəti, milli ideallara bağlılığı özünü həm də üçrəngli bayrağımıza münasibətdə qabarıq göstərir. Dövlət başçısı 2007-ci il noyabrın 17-də "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" Sərəncam imzalamışdır.

Ölkəmizin digər guşələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və ehtiramın göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir. Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri demişdir: ***"Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır... Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə Dövlət Bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir".***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən hər il noyabr ayının 17-nin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilməsi qərara alınmışdır.

Naxçıvan şəhərindəki Bayraq Meydanında Bayraq Muzeyi yaradılmışdır. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərar və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyində müxtəlif tədbirlərin keçirilməsi ənənə halını almışdır. Muxtar respublikanın nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeyi ziyarət edir, burada onlara dövlət və döyüş bayraqlarımız haqqında ətraflı məlumatlar verilir. Bayrağımıza ehtiram hissini gücləndirmək məqsədilə dövlət qulluğuna yeni təyin olunmuş gənclərin andiçmə mərasimlərinin burada keçirilməsi onların bayrağımız haqqında daha geniş bilgilərə malik olmalarına şərait yaradır.

Azərbaycan bayrağı millətimizin və dövlətimizin simvoludur. Xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin ifadəsi, hörmət və ehtiramının tək ünvanı olan Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılır. Bu gün müstəqil Azərbaycan dövlətinin bayrağı işğaldan azad edilmiş Lələtəpə yüksəkliyində, Cocuq Mərcanlı və Günnüt kəndlərində, Qızılqaya zirvəsində qürurla dalğalanır. Bayrağımızın işğal olunmuş digər torpaqlarımızda da dalğalanacağı gün uzaqda deyil.

Ölkə Prezidentinin iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda dediyi kimi: ***"2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".***

**"Şərq qapısı"**

## İnteraktiv dərs keçilib

*Noyabrın 8-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Dövlət Bayrağı Muzeyi arasında interaktiv dərs keçilib.*

Açıq dərsdə muzeyin bələdçisi Ayşən Mehdiyeva qeyd edib ki, dövlət rəmzləri istənilən dövlətin tanınma nişanı, suverenliyinin, özünəməxsusluğunun rəmzidir. Bu rəmzlərdə hər bir dövlətin, xalqın çoxəsrlik tarixi, milli dəyərləri və ənənələri öz əksini tapır. Qədim dövlətçilik tarixi və ənənələri olan çağdaş Azərbaycan dövlətinin müstəqilliyi və şərəfli keçmişini əks etdirən dövlət rəmzləri sırasında Azərbaycan Respublikasının Dövlət Bayrağı müstəsna yer tutur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı qəbul edilən üçrəngli bayrağımız ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali





Məclisinin sessiyasında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublika rəhbərinin 2014-cü il 22 avqust tarixdə imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncam mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilib. Meydanın mərkəzində inşa olunmuş bayraq dirəyinin hündürlüyü 57 metrdir. Burada dalğalanan üçrəngli bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin tərtibatlı özülünün altında unikal quruluşa malik Bayraq Muzeyi yaradılıb. Muzey dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Onun ekspozisiyasında müxtəlif tarixi sənədlər və fotoşəkillər, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları da yerləşdirilib. Muzeydə, ümumilikdə, 164 eksponat vardır.

Vurğulanıb ki, bayrağımız dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Ona görə də hər bir vətəndaş, xüsusən gənc nəsil bunu dərk etməli, qiymətləndirməlidir. Bayraq sevgisi, eyni zamanda Vətənə məhəbbəti ifadə edir.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

12 noyabr Konstitusiya Günüdür

# Ölkəmizdə uğurlu Konstitusiya islahatları həyata keçirilir

*1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı nəinki Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, həm də onun dövlətçiliyinin xilasında müstəsna rol oynadı. Ümummilli lider öz qətiyyəti, dərin zəkası, zəngin dövlətçilik təcrübəsi və böyük siyasi nüfuzu sayəsində xilaskarlıq missiyasına başladı. Təsadüfi deyil ki, 1995-ci il iyunun 5-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası yaradıldı.*



Qeyd edək ki, bu ali sənədin müasir dəyərləri özündə ehtiva edən mükəmməl formada qəbul olunmasını reallaşdırmaq üçün ulu öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı. ***“Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”***, – deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdü. Konstitusiya layihəsi hazırlandıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə onun açıq müzakirələrinin keçirilməsi bu ümumxalq əhəmiyyətli sənədin ən təkmil formada ərsəyə gətirilməsinə şərait yaratmışdır. Bütün müzakirələrin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olunmuşdur.

Ulu öndərin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsini əks etdirən hadisə idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir səhifə yazıldı, dahi rəhbər Heydər Əliyevin uzunmüddətli gərgin əməyinin məhsulu olan Konstitusiya öz demokratikliyi, humanistliyi ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı, xalqımızın demokratik dövlət qurmaq və dünya arenasında layiqli yer tutmaq istəyini nümayiş etdirdi. Məhz bu tarixi hadisədən sonra Azərbaycanda hüquqi islahatlara başlanıldı. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, ***“Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”.***

Müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası 5 bölmə, 12 fəsil və 158 maddədən ibarət olmaqla, dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının təmin olunmasının bünövrəsini qoymuşdur. Demokratik prinsipləri əsas tutaraq Konstitusiyamızda insan hüquqlarına, azadlıq və vəzifələrinə geniş yer verilir. Bu hüquq, azadlıq və vəzifələr Konstitusiyanın ikinci bölməsində 48 maddədən ibarət olub Konstitusiya mətninin əsas hissəsini təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin hər hansı maraqlara deyil, məhz vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcısı olan şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan etmişdir. Bu baxımdan Konstitusiyamızın üçdəbir hissəsi əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmiş, Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsildə insan və vətəndaş hüquqları və azadlıqlarının əsas prinsipi, onların reallaşdırılması mexanizmləri nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına öz müsbət təsirini göstərmişdir.

Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri də həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan yeni bir institutun – Konstitusiya nəzarəti təsisatının yaradılması olmuşdur. Qeyd edilməlidir ki, Konstitusiya nəzarətinin əsas məqsədi Konstitusiyanın aliliyinin təmin edilməsi və Konstitusiya ilə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsidir. Bu baxımdan ali Konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi normativ-hüquqi aktların Konstitusiyaya və hüquqi iyerarxiyada özündən üstün qüvvəyə malik aktlara uyğunluğunun müəyyənləşdirilməsi, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Konstitusiyanın və qanunların şərh edilməsi, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi kimi mühüm səlahiyyətlərə malikdir.

Konstitusiyamızın gətirdiyi digər yeniliklərdən biri də ilk dəfə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin statusunun konstitusion səviyyədə təsbit edilməsi olmuşdur. Milli Konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı – bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır.

Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas yaratmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Naxçıvan Muxtar Respublikasının Qanunu kimi qəbul edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkilini, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmişdir. Bu Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə Ali vəzifəli şəxs institutu təsis edilmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə, ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır.

Azərbaycan Respublikasının beynəlxalq arenaya inteqrasiyasının gücləndiyi və hüququn müasir inkişafı şəraitində Konstitusiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir. 2002-ci il avqustun 24-də ölkəmizdə ümumxalq səsverməsi – referendum keçirilmiş, ilk dəfə Konstitusiyanın, ümumilikdə, 24 maddəsinə 31 əlavə və dəyişikliklər edilmişdir. 2009-cu il martın 18-də ikinci dəfə Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişikliklər edilmişdir. 2016-cı ildə keçirilən ümumxalq səsverməsi – referendumla isə Konstitusiyanın 23 maddəsinə əlavə və dəyişikliklər edilmiş, eləcə də yeni 6 maddə əlavə olunmuşdur.

*Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, qanunvericilik sahəsində əldə olunan nailiyyətlər mənbəyini Azərbaycan Konstitusiyasından alan möhkəm hüquqi bazaya malikdir. Möhkəm hüquqi bazaya malik olan Azərbaycan Respublikasının Konstitusiyası hələ uzun illər Azərbaycan Respublikasının sabitlik şəraitində davamlı inkişafını təmin etməyə, müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir

# Birlik və həmrəylik milli ideologiyamızın əsasıdır

*Milli birlik və həmrəylik ideyası hər bir xalqın tarixi inkişafında mühüm şərtlərdəndir. Çünki milli birliyə nail olmadan bir xalqın müstəqil, azad yaşamaq imkanı da yoxdur. Milli birliyin olması isə milli mənlik şüurunun dərkindən başlayır. Bu gün qloballaşan dünyada ayrı-ayrı dövlətlərin və xalqların bir-birinə tərəqqi məqsədilə sıx yaxınlaşdığı bir vaxtda milli özünüdərkin əhəmiyyəti daha aydın görünür. Azərbaycan xalqı da tarixən öz azadlığı, müstəqilliyi uğrunda mübarizə apararaq ötən əsrin əvvəllərində və sonunda bu arzusunu həyata keçirmiş, dünyanın sivil xalqı olduğunu hər kəsə sübut etmişdir. Lakin ikinci dəfə müstəqillik arzularını gerçəkləşdirən xalqımızın vahid ideologiya ətrafında birləşərək bu müstəqilliyi qoruması və milli özünüdərkə qayıdışı ümummilli liderimiz Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Dahi şəxsiyyətin ümumxalq mənafeyi naminə atdığı tarixi addımlar dünyada yaşayan bütün soydaşlarımızın eyni hədəf uğrunda mübarizəsinin əsasını təşkil etmiş, onların Azərbaycançılıq ideyası əsasında sıx birləşməsinin başlanğıcını qoymuşdur.*

Azərbaycançılıq ideyasının formalaşması prosesinin başlanması da ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Görkəmli dövlət xadiminin həmin illərdə Azərbaycanın müstəqilliyi uğrunda atdığı addımlar, o cümlədən milli dövlət bayrağımızın ilk dəfə Naxçıvan parlamentində qaldırılması, muxtar respublikanın adından “sovet sosialist” sözlərinin çıxarılması, keçmiş ittifaqın saxlanılması üçün referendum təklifinin boykot edilməsi, ilk milli ordu hissələrinin yaradılması və digər bu kimi tədbirlər Azərbaycançılığın ən böyük nümunəsi kimi tarixin yaddaşına keçmişdir. Ümummilli liderimizin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən “31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul edilməsi və ilin sonuncu gününün “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” kimi elan edilməsi isə Azərbaycançılığın təkcə Azərbaycanda deyil, bütün dünyada yaşayan azərbaycanlıların milli məfkurəsi olduğunun təsdiqi idi.

Ulu öndər Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bu prosesi diqqət mərkəzində saxlayaraq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla hərtərəfli əlaqələri inkişaf etdirmək, onları vahid Vətən uğrunda səfərbər etməyi dövlətin xarici siyasət kursunda mühüm istiqamət kimi müəyyənləşdirmişdir. Məhz dahi şəxsiyyətin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəylik uğrunda birləşmənin, diaspor quruculuğu sahəsində yeni mərhələnin başlanğıcı olmuşdur. Həmin qurultayda 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Qurultaydakı nitqində ümummilli lider dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***“Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Xaricdə yaşayan azərbaycanlılar isə gərək müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtdir”.***

Sonrakı illərdə də dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində mühüm tədbirlər görülmüş, ulu öndər 2002-ci ildə imzaladığı fərmanla bu işin dövlət səviyyəsində tənzimlənməsini həyata keçirmişdir. Belə ki, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına şərait yaratmışdır. 2002-ci il dekabrın 27-də qəbul edilmiş “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanun isə diaspor quruculuğu sahəsində mühüm qərarların qəbuluna, eyni zamanda dünya azərbaycanlılarının mütəşəkkilliyinin təmin olunmasına öz töhfəsini vermişdir. Dahi şəxsiyyətin dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılara xitabən söylədiyi ***“Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən”*** fikirləri həmrəylik düşüncəsini milli özünüdərkin əsas elementi kimi görməsindən irəli gəlirdi.

Bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vahid bir ideologiya ətrafında birləşməsi, ölkəmizin sürətli inkişafında onların rolunun artırılması, Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir. Dövlət başçısının 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Artıq bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, 2011-ci il iyulun 5-də isə Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçirilmişdir. Qurultayda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. Həmin qurultayda Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək amansız və məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etmişdir. III Qurultay bir daha göstərmişdir ki, Azərbaycanın inamla irəliləyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırmışdır. 2016-cı il iyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olunmuşdur. İki gün davam edən tədbirdə 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir.

Bu gün artıq xaricdə yaşayan soydaşlarımızın Azərbaycanla sıx əlaqələri var. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, Azərbaycanla bağlı ictimai fikrin formalaşmasında bu əlaqələrin rolu böyükdür. İndi artıq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Azərbaycanın güclü, hərtərəfli inkişaf etmiş ölkə kimi uğurlarından qürur hissi keçirir, bu gücün, qüdrətin və nüfuzun daha da artacağına inanırlar. Bunun üçün isə həmvətənlərimizin Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsi, öz Vətənlərinə güvənməsi şərtdir. Ölkə Prezidenti cənab İlham Əliyev dediyi kimi: ***“Dünyada yaşayan bütün azərbaycanlılar bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər”.***

**“Şərq qapısı”**

## Muxtar respublikanın tarixi abidələri, mədəniyyət və təhsil müəssisələri ilə tanışlıq Rusiya səfirində zəngin təəssürat yaradıb





*Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov noyabrın 6-8-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın istehsal, təhsil, mədəniyyət müəssisələri və tarixi abidələri ilə tanış olub.*

Əvvəlcə diplomat ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Dövlət Xalça Muzeyində olan qonağa bildirilib ki, 1998-ci ildən fəaliyyət göstərən muzeydə hazırda qədim xalq sənətimizi nümayiş etdirən 3 mindən çox eksponat var.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qorunub saxlanılan, eramızdan əvvəl V-III minilliklərə aid nadir tarixi eksponatlar, Naxçıvanın 5 minillik şəhər mədəniyyəti barədə məlumatlar qonaqda böyük maraq doğurub.

Nuh Peyğəmbərin türbəsində olan qonağa məlumat verilib ki, bu abidənin qədim dövrlərdən mövcudluğu elmi araşdırmalarla öz təsdiqini tapıb. Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə imzaladığı "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında" Sərəncama əsasən mükəmməl şəkildə bərpa edilib.

Səfir Naxçıvan Biznes Mərkəzində də olub. Burada qonağa məlumat verilib ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində 382 növdə məhsul istehsal olunur.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn qonağa bildirilib ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, bura genişləndirilib, müasir avadanlıq və ləvazimatlarla təmin edilib.

Mixail Boçarnikov Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə də olub. Qeyd edilib ki, Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbi 1939-cu ildən fəaliyyət göstərir. 600 şagird yerlik məktəbdə 5-i elektron lövhəli olmaqla, 32 sinif otağı, fənn laboratoriyaları və digər otaqlar vardır. Burada rus dilində tədrisin keyfiyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır.

Səfir Naxçıvan Avtomobil Zavodunun, "Gəmiqaya Mebel Fabriki", "Gəmiqaya Mineral Sular" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal potensialı ilə maraqlanıb, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Batabat iqlim kurort zonası və Ağbulaq İstirahət Mərkəzi ilə tanış olub.

Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov təəssüratlarını "Şərq qapısı" qəzetinin müxbiri ilə bölüşüb. Qonaq əvvəlcə qeyd edib ki, səfər muxtar respublika ilə tanışlıq məqsədi daşıyır. Naxçıvanın çox gözəl təbiəti, qədim tarixi və mədəni abidələri, iqtisadi potensialı olduğunu vurğulayan səfir deyib ki, yerli əhalinin tələbatının ödənilməsi üçün bir çox sənaye və kənd təsərrüfatı məhsulları məhz Naxçıvanda istehsal olunur. Bu yaxşı haldır. Mixail Boçarnikov qeyd edib ki, Naxçıvan Avtomobil Zavodunda olarkən burada istehsal edilən nəqliyyat vasitələrinin təkcə muxtar respublikada deyil, Azərbaycanın digər bölgələrində də böyük tələbat olduğunu öyrəndim.

Naxçıvan şəhərindəki rusdilli məktəblə yaxından tanışlığın onda xoş təəssüratlar oyatdığını bildirən səfir deyib: "Bu məktəbdə müasir standartlara cavab verən şəraitin yaradılmasını yüksək qiymətləndirirəm. Məktəbdəki tədris prosesi ilə yaxından tanış oldum, məktəbin pedaqoji kollektivi ilə söhbət zamanı burada işləyən müəllimlərin öz işlərinə necə məsuliyyətlə yanaşdıqlarına şahidlik etdim. Bu, məni çox sevindirdi".

Mixail Boçarnikov muxtar respublikadan xoş təəssüratlarla ayrıldığını, yaradılan şəraitə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

**Tural AĞAYEV**

## Naxçıvan Beynəlxalq Hava Limanı payız-qış mövsümünə hazırdır



***Naxçıvan Beynəlxalq Hava Limanında 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq işləri başa çatdırılıb.***

Hava limanının aerodrom təminatı sahəsinin rəisi İlkin Nəsirov bununla bağlı keçirilən tədbirdə çıxış edərək bildirib ki, mövsümlə əlaqədar ayrı-ayrı xidmət sahələrində qrafik üzrə nəzərdə tutulmuş bütün işlər yerinə yetirilib. O qeyd edib ki, hava limanının soyuq və qarlı günlərdə də daim işlək vəziyyətdə saxlanılması, habelə hava gəmilərinin enib-qalxması zamanı təhlükəsizliyin təmin olunması üçün profilaktik tədbirlər həyata keçirilib. Fırçalı qartəmizləyən, qarkürəyən, istilik verən, rotorlu xüsusi avtomaşınlar saz vəziyyətə gətirilib, hava limanında uçuşların təhlükəsizliyi üçün davamlı olaraq bütün elektrik, işıq sisteminin, rabitə qurğularının, maşın-mexanizmlərin texniki baxışı həyata keçirilib. Uçuş-enmə zolağında normativ ilişmə əmsalının yoxlanılması üçün spidometr avadanlığı texniki baxışdan keçirilib. Həmçinin tələbata görə yanacaq və mal-material ehtiyatının yaradılması diqqət mərkəzində saxlanılır.

İlkin Nəsirov onu da diqqətə çatdırıb ki, görülən işlər soyuq qış aylarında, istənilən hava şəraitində cədvəl üzrə həm yerli, həm də beynəlxalq səviyyəli uçuşların rahat və təhlükəsiz təşkilinə imkan verəcəkdir. Hava limanının uzunluğu 3300, eni isə 60 metr olacaq yeni uçuş-enmə zolağının inşası davam etdirilir.

Qeyd edək ki, Naxçıvan Beynəlxalq Hava Limanının nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bu il də davam etdirilib, noyabrın 2-də hava limanına 25 adda 30 yeni texnika və avtomobil təqdim olunub.

**Ramiyyə ƏKBƏROVA**

## Növbəti təkmilləşdirici kursa yekun vurulub

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi büdcə təşkilatlarının maliyyə və mühasibatlıq işində çalışanların mövcud biliklərinin artırılması və ixtisaslarının təkmilləşdirilməsi istiqamətində işlərini davam etdirir.*

5-8 noyabr tarixlərdə təşkil edilən növbəti təkmilləşdirici kursa mənzil-kommunal təsərrüfatı profilli müəssisələrdən 21 nəfər mühasibatlıq işçisi dəvət edilib. Kursda mənzil-kommunal təsərrüfatı müəssisələrinin gəlir və xərclərinin proqnozlaşdırılması və maliyyələşmə istiqamətləri, mühasibatlıq və maliyyə hesabatlarının hazırlanması, vergi uçotunun təşkili, maliyyə və mühasibatlıq işinin aparılması ilə bağlı hüquqi məsuliyyət, büdcə təşkilatlarında xəzinə əməliyyatlarının təşkili və uçot mövzuları üzrə təlimlər keçirilib.

Mərkəzin sayca 11-ci kursunun gündəliyinə uyğun olaraq ilk gün Maliyyə Nazirliyinin İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Ağəli Novruzovun "Mənzil-kommunal təsərrüfatı müəssisələrinin gəlir və xərclərinin proqnozlaşdırılması" mövzusunda çıxışı olub. Növbəti günlərdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Vergilər, Maliyyə nazirliklərinin, Naxçıvan Muxtar Respublika Prokurorluğunun əməkdaşları müvafiq mövzular üzrə məruzələr ediblər.



Qeyd edək ki, 4 gün keçirilən kursda praktik məsələ və testlərin həllinə yer ayrılıb. Bundan əlavə, təlimdə sual-cavab, testlərin qarşılıqlı işlənməsi və sorğu-anketlərin doldurulması təmin edilib. Həmçinin təlim materialları – slaydlar, müvafiq vəsaitlər təqdim olunub.

Peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi mərhələsindən sonra dinləyicilərə Maliyyə Tədris Mərkəzinin sertifikatları verilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Narkotik vasitələr və psixotrop maddələr məhv edilib

*Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası narkomaniyaya qarşı mübarizə tədbirlərini davam etdirir.*

Noyabrın 8-də komissiyanın üzvləri tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinin 18 iyul, 19 iyul, 6 avqust, 29 avqust və 30 avqust 2018-ci il tarixli hökmləri, Naxçıvan Şəhər Məhkəməsinin 18 may 2018-ci il tarixli hökmü və 10 sentyabr 2018-ci il tarixli qərarı, Şərur Rayon Məhkəməsinin 23 yanvar və 6 iyul 2018-ci il tarixli qərarları, Ordubad Rayon Məhkəməsinin 27 avqust 2018-ci il tarixli 2 qərarı, Culfa Rayon Məhkəməsinin 17 may, 24 avqust 2018-ci il tarixli hökmləri və 28 avqust, 2 oktyabr 2018-ci il tarixli qərarlarına əsasən, ümumilikdə, 15 iş üzrə ayrıca bağlamalarda saxlanılan ümumi çəkisi 104 kiloqram 782 qram 67 milliqram olan heroin, 14 qram 542 milliqram qurudulmuş marixuana, 15 milliqram həşiş qatranı narkotik vasitələri, 164 qram 227 milliqram metamfetamin və 95 ədəd (89+6) "Tramadol" psixotrop maddələri naturada üzləşdirilib, bağlılığı, açılmadığı, möhürlərin yerində olduğu müəyyənləşdirilib. Sonra həmin maddələr Naxçıvan şəhəri, Babək məhəlləsində yerləşən qazanxanada yandırılmaqla məhv edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov iştirak edib.

**Səbuhi HƏSƏNOV**

## Bir qrup tələbənin təhsil xərcləri müsabiqə əsasında maliyyələşdiriləcək



Azərbaycan Respublikasının Gənclər Fondunun təhsil haqqını ödəməkdə çətinlik çəkən istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqənin Naxçıvan Dövlət, "Naxçıvan" universitetlərində və Naxçıvan Müəllimlər İnstitutunda təqdimatları keçirilib.

Tədbirlərdə universitet rektorlarının, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevin, Azərbaycan Respublikası Gənclər Fondunun əməkdaşları Çingiz Əsgərlinin və Orxan Sədizadənin çıxışları olub.

Çıxışlarda bildirilib ki, Azərbaycanda gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət hazırda dövlətimiz tərəfindən yüksək səviyyədə davam etdirilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli Fərmanının icrasına uyğun olaraq keçirilən bu tədbir Azərbaycanda ilk pilot layihədir. Maliyyələşmə zamanı tələbənin davamiyyəti və təhsil göstəriciləri əsas götürülür. Maliyyələşmə təhsil haqqı xərclərinin tam və ya qismən qarşılanmasını nəzərdə tutur. Müraciət etmək istəyən gənclər fondun rəsmi (*www.youthfoundation.az*) saytında qeydiyyatdan keçib, kod və şifrə əldə etdikdən sonra saytın elektron xidmətlər bölməsində yerləşdirilmiş ərizə formasını müvafiq qaydada doldurub, sayt üzərindən fonda göndərməlidirlər.

Fond tərəfindən Milli qəhrəmanların övladları, I, II və III qrup əlil olan gənclər, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş və ya internat məzunları olan gənclər, I qrup əlil valideyni olan gənclər, hər iki valideyni I,II, III qrup əlilliyi olan gənclər və aztəminatlı ailədən olan gənclərin müraciətlərinə üstünlük veriləcəkdir.

Vurğulanıb ki, Naxçıvan Dövlət, "Naxçıvan" universitetləri, Naxçıvan Müəllimlər İnstitutu daxil olmaqla, 31 ali təhsil müəssisəsinin əyani və qiyabi təhsilalma formaları üzrə, bakalavr və magistr təhsil pillələrində olan 16-29 yaşlı tələbələr elektron ərizə formasını müvafiq qaydada doldurub, müraciət edə bilərlər.

Qeyd edək ki, tədbirdə elektron ərizə formalarının doldurulması qaydaları slaydlar vasitəsilə nümayiş etdirilib. Müraciətlər noyabrın 2-dən noyabrın 18-i saat $20^{00}$-dək qəbul ediləcəkdir. Fond tərəfindən müraciətlərə 15 gün ərzində baxılacaqdır. Nəticələr barədə məlumat fondun rəsmi internet səhifəsində və mətbuatda dərc olunacaqdır.

**Xəbərlər şöbəsi**

## Vəzifələr icra edilir

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır, tədbirlər, monitorinqlər təşkil olunur, sərgi-satışlar keçirilir. Oktyabr ayında məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət təşkil olunan 10 günlük sərgi-satışda 188 şəxsin 2427 rəsm və əl işi nümayiş olunmuş, 158 şəxsin 8626 manat dəyərində 681 rəsm və əl işi satılmışdır. Həmçinin istedadlı qadınların toxuduqları 146 qış geyimi 63 aztəminatlı ailənin uşaqlarına təqdim olunmuşdur.

Muxtar respublikanın 2 kənd mərkəzində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmiş, 410 maarifləndirici broşür paylanılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 4 uşaq müəssisəsində monitorinq aparılmış, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 801 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 9 uşaq məktəbəqədər, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ailə təsərrüfatları festivala hazırlaşır

***Ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən reallaşdırılan sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Bazar iqtisadiyyatı şəraitində yeni iş yerlərinin yaradılmasında özünüməşğulluq modelindən istifadə dünya təcrübəsində geniş tətbiq olunur.***

Ölkəmizdə də yeni təsərrüfat formalarının tətbiqi xüsusi diqqət yetirilən məsələlərdən biridir. Bu, respublikamızın uğurlu inkişafını təmin edən başlıca amildir, bu istiqamətdə bir çox layihələr reallaşdırılıb və nəticələrini verib.

Muxtar respublikamızda da təbii ehtiyatlardan və əmək potensialından istifadə olunmaqla həmin sahənin inkişaf etdirilməsi son dövrlərdə daha intensiv şəkildə həyata keçirilir. Belə ki, ailə təsərrüfatları yaratmaqla özünüməşğulluğun təmin olunması sadə idarəetmə yolu ilə konkret bir məhsul və ya xidmətin istehsalı üzrə bazar tələbatının ödənilməsi və şübhəsiz, bunun vasitəsilə də belə təsərrüfatlarda məşğul olan insanların gəlirlərinin artırılması deməkdir.

Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı bu rolunu nəzərə alaraq muxtar respublikamızda onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilir. Belə ki, cari ildə də güzəştli kreditlər təqdim olunan sahibkarlıq subyektləri arasında ailə təsərrüfatları da vardır. Hazırda muxtar respublikamızda 1000-ə yaxın ailə təsərrüfatı fəaliyyət göstərir ki, onların da 200-ə yaxını iri təsərrüfatçı hesab olunur.

Belə təsərrüfatlar təkcə özünüməşğulluq vasitəsi sayılmır. Onlar həm də böyük biznes üçün təcrübədir. Bu təcrübə, xüsusən ucqar yaşayış məntəqələrində yaşayan insanların iş qurması ilə məskunlaşdığı ərazilərə məxsus olan yeni biznes imkanlarının reallaşmasına səbəb olur. Bu gün ailə təsərrüfatı ilə məşğul olanlar sabah daha böyük sahibkarlar kimi mühüm biznes layihələri reallaşdırmağa başlayırlar. Bu da sahibkarlığın daha da genişləndirilməsi və iqtisadi sahələrin şaxələndirilməsi deməkdir. Muxtar respublikamızda bütün bu müsbət cəhətlər nəzərə alınaraq ailə təsərrüfatları məşğulluq probleminin həll olunmasında, əhali gəlirlərinin həcminin artmasında müsbət bir amil kimi qiymətləndirilir. Buna görə də belə təsərrüfatların yaradılmasına üstünlük verilir.

Həmin təsərrüfatlardan biri də Şərur rayonunun Arpaçay kənd sakini Abdulla Adıgözəlova məxsusdur. Onun Çərçiboğan kəndi ərazisində yaratdığı "Arpaçay istixanaları" və ətrafında saldığı meyvə bağları daxili bazara öz töhfələrini verir.

Bir hektar ərazidə yerləşən 8 istixanada pomidor, xiyar, badımcan, bibər yetişdirən və muxtar respublikanın bir sıra ticarət obyektlərini ilboyu belə məhsullarla təchiz edən torpaq mülkiyyətçisi deyir ki, 2013-cü ilin mart ayında istixana kompleksinin yaradılması üçün biznes-plan hazırlayıb Sahibkarlığın İnkişafı Fonduna təqdim edib. Bu işin reallaşdırılması üçün fonddan ona 50 min manat güzəştli kredit ayrılıb. Ayrılan vəsait hesabına lazımi avadanlıqlar alınıb. Qısa müddət ərzində istixanada məhsul yetişdirilməsi üçün lazımi işlər görülüb. Budur, bir neçə ildir ki, istixanalarda bol və keyfiyyətli məhsullar yetişdirilir.

Onu da qeyd edək ki, təsərrüfatda daha 10 istixananın qurulmasına başlanılıb. Bu kompleksin və ətraf sahədə salınan meyvə bağlarının suya olan tələbatı yaxınlıqda yerləşən iki artezian quyusu vasitəsilə ödənilir.



Torpaqdan, necə deyərlər, dördəlli yapışan Abdulla istixanaların ətrafında 3 hektar ərazidə ərik, 2 hektarda heyva, 1 hektarda gavalı, 0,5 hektarda üzüm bağı da salıb. Yaxın günlərdə isə istixana kompleksinin yaxınlığındakı 1 hektar torpaq sahəsində 1200 şaftalı tingi əkməyi nəzərdə tutub.

Bu il bağlardan 7,5 ton ərik, 4 ton üzüm, 8 tona yaxın gavalı yığılıb. Təsərrüfatda yetişdirilən tərəvəz və meyvələr Şərurla yanaşı, Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarılır.

Sahibkarla söhbətdən onu da öyrəndik ki, təsərrüfat üzvləri hazırda heyva bağında məhsul tədarükü ilə məşğuldurlar. Abdulla Adıgözəlov deyir:

– Öz ailəmlə saldığım bu heyva bağını daimi iş yeri sayır, burada çalışmaqdan zövq alıram. Onu da deyim ki, heyva becərilməsi ilə illərdir, məşğul oluram.

Bir neçə sahədə fəaliyyət göstərməyin çətinlikləri barədə soruşduqda həmsöhbətim bildirdi ki, əvvəllər çətinliklərimiz çox olub. Lakin öz qohum-əqrəbamın, yaxın qonşularımızın köməyini gördükdə qərara aldım ki, elə işimizi onlarla birlikdə quraq. Fikrimlə razılaşdılar.

Ailə təsərrüfatının üzvü Samir Adıgözəlov atalarımızın bir məsəlini yada salır: "Güc birlikdədir". Biz bu birliyi ailə təsərrüfatını yaradandan sonra bir daha gördük və bu gün də görürük. İstər meyvə bağlarında, istərsə də istixanalarda çalışanların hamısı bol və keyfiyyətli məhsul yetişdirilməsi üçün öz məsuliyyətini dərindən dərk edir. Yaxşı çalışmaq, yaxşı qazanmaq, ölkəmizin iqtisadiyyatına töhvə vermək yaxşı yaşamaq deməkdir. Dövlətimizə minnətdarıq ki, bizə belə şərait yaradıb.

Builki mövsümdə heyva bağında da bol məhsul yetişdiyini bildirən təsərrüfat sahibi bunu onunla izah etdi ki, ailə üzvləri ilə birlikdə ilboyu aparılmalı olan aqrotexniki tələblərə əməl ediblər. Göründüyü kimi, çəkdikləri zəhmət hədər getməyib, bu günədək 7 ton məhsul yığıblar.

Abdulla sabah Naxçıvan şəhərində keçiriləcək "Ailə təsərrüfatı məhsulları" festivalına müxtəlif çeşidlərdə məhsul çıxaracaq.

Muxtar respublikamızın nümunəvi ailə təsərrüfatı sahiblərindən biri də Babək rayonunun Nehrəm kəndində yaşayan Cəmşid Həsənovdur. Onun ailəsi uzun illərdir ki, əkinçiliklə məşğul olur. Nehrəmin barlı-bərəkətli torpaqlarında ailə üzvləri ilə birlikdə taxılçılıq, həmçinin bostan-tərəvəz bitkilərinin əkini ilə məşğuldur. Son illərdə muxtar respublikamızda həyata keçirilən meliorasiya tədbirləri nəticəsində yeni əkin sahələri dövriyyəyə qatıldığından Cəmşid Həsənov da bu şəraitdən layiqincə yararlanıb. Belə ki, Heydər Əliyev Su Anbarından yeni çəkilən su xəttinin sayəsində bu il "Pircuvar" adlanan ərazidə bostan və tərəvəz məhsullarının əkin sahəsini daha da genişləndirib.



Müsahibimizin dediyinə görə, bu il 150 hektar sahədə taxıl biçini aparıb. Onun 12 hektarı arpa, qalanı isə buğda olub. Yaxşı da məhsul götürüb – hektara 28-30 sentner. Bundan əlavə, böyük bir sahədə bostan məhsulları yetişdirib, 2 hektar sahədə tərəvəz, 2 hektarda isə noxud əkib. Tədarük etdiyi bostan məhsullarını Naxçıvan-Culfa magistral yolunun kənarında torpaq mülkiyyətçiləri üçün ayrılmış ərazidə və Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında satıb. Həmsöhbətim bildirdi ki, bu il 80 tona yaxın qovun-qarpızdan yaxşı gəlir əldə edib. Pomidor və xiyar da satışa çıxarılan məhsullar içərisində üstünlük təşkil edir. Son 3 ildə isə əkdiyi pomidorlardan tomat da istehsal edir. Ailə üzvləri tərəfindən qablaşdırılan tomat və müxtəlif çeşiddə turşular rayon ərazisində, eləcə də Naxçıvan şəhərində fəaliyyət göstərən satış obyektlərində alıcılara təqdim olunur. Onun sözlərinə görə, bu il havaların çox isti keçməsinə baxmayaraq, sahələrdən bol tərəvəz məhsulları əldə edib. Hətta taxıl biçini yekunlaşdıqdan sonra həmin sahələrdə yenidən şum qaldıraraq pomidor əkib. Həmin pomidorlar qızarmadan, turşuluq məqsədilə sahələrdən yığılaraq satışa göndərilib. Kartof əkini də Cəmşid Həsənovun diqqət yetirdiyi sahələrdəndir. Bu il o, 10 hektar sahədə kartof əkib, yaxşı da məhsul əldə edib.

Təsərrüfat sahibinin dediklərindən: – İstər əkin vaxtı, istərsə də məhsul yığımı və qablaşdırılmasında ailə üzvlərimizin əməyindən istifadə edirəm. Onlar olmadan bu qədər işin öhdəsindən gəlmək mümkün deyil. Belə ailə təsərrüfatlarına dövlət tərəfindən də lazımi köməklik göstərilir. Yanacaq, əkin üçün gübrə, güzəştli kreditlərin verilməsi biz təsərrüfatçılar üçün böyük dəstəkdir. Şəxsən mən belə güzəştli kreditlərdən yararlanaraq işlərimi xeyli sürətləndirmişəm. İndi, şükürlər olsun, əkin-biçin üçün şəxsi texnikalarımız da var. Çalışırıq ki, öz zəhmətimizlə qurub-yaratdığımız təsərrüfatı daha da genişləndirək. Qoy insanlar hər zaman sağlam, ekoloji baxımdan təmiz yerli məhsullar alsınlar.

Sonda müsahibimiz onu vurğuladı ki, Naxçıvan şəhərində sabah keçiriləcək "Ailə təsərrüfatı məhsulları" festivalında ilk dəfədir, iştirak edəcək. Festivala qablaşdırılmış tomat və turşular çıxaracaq. Cəmşid Həsənov belə festivalların keçirilməsinin torpaq mülkiyyətçiləri üçün böyük stimul olduğunu qeyd etdi və tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi.

Ailə təsərrüfatı sahiblərindən biri də Ordubad rayonunun Vənənd kəndində yaşayan Yaqut Babayevadır. Onun adı bizə bu ilin may ayında keçirilən "Göyçə" festivalından tanışdır. Belə ki, həmin festivalda o, "Ən yaxşı göyçə" müsabiqəsində ikinci yerə layiq görülərək diplomla təltif olunub. Bu günlərdə isə Yaqut xanımla yaşadığı Vənənd kəndində görüşüb söhbət edərkən öyrəndik ki, "Ailə təsərrüfatı məhsulları" festivalında iştirak etmək üçün hazırlıq işləri görür.

Müsahibim bildirdi ki, Vənənd kəndində meyvəçilik tarixən inkişaf etdirilib. Hazırda da bu ənənə yaşadılır. Onun dediklərindən:

– Bağımızda müxtəlif meyvə ağacları var. Bu il isə meyvə daha bol olub. Hazırda bu mövsümdə yetişən meyvələri tədarük edirik. Ailə üzvlərimizin köməyi ilə birgə alma, armud, heyva, üzüm, şaftalı və digər meyvələrdən kompot və mürəbbələr hazırlamışıq. Satış üçün onları müxtəlif şüşə qablarda gigiyenik qaydalara uyğun olaraq qablaşdırmışıq. Bu məhsullarla yanaşı, Ordubad meyvələrindən hazırlanmış sucuq, miyanpur, alana kimi ənənəvi məhsulları da yaddan çıxarmamışıq.

Yaqut Babayeva qədim zamanlardan sucuq, alana, miyanpur kimi Ordubad süfrələrinin bəzəyi sayılan nemətlərin hazırlanması ənənəsini təsərrüfatında davam etdirdiyini bildirir.

Öyrəndik ki, müsahibimiz budəfəki "Ailə təsərrüfatı məhsulları" festivalına 40 çeşiddən çox məhsul çıxarmağı düşünür. Bu məhsullar içərisində meyvələrdən hazırlanmış müxtəlif təamlarla yanaşı, qurudulmuş müxtəlif pencər növləri və kəklikotu da var. Muxtar respublikamızda növbəti dəfə ailə təsərrüfatı sahiblərini bir yerə toplayacaq festival haqqında isə həmsöhbətimiz bunları dedi:

– "Ailə təsərrüfatı məhsulları" festivalı Naxçıvan şəhərində keçirilən ən maraqlı festivallardan biridir. Çünki payız fəslində təşkil edilən bu festivalda yerli məhsulların növ və çeşidi daha çox olur. Belə tədbirlərə yerli sakinlər və qonaqlar tərəfindən böyük maraq var. Hər kəs istədiyi məhsulu münasib qiymətə ala bilir. Eyni zamanda bu kimi tədbirlərdə biz yeni alıcılarla tanış olmaq imkanı qazanırıq. Onlar sonradan da sifariş üçün bizimlə əlaqə saxlayırlar. Həm də bazardan fərqli olaraq festivalda yerli məhsulların təqdimatı daha gözoxşayan olur.

Müxtəlif ailə təsərrüfatlarının həvəslə hazırlaşmalarından da bəlli olduğu kimi, ötən il keçirilən festival muxtar respublika sakinləri və həmin ərəfədə qədim diyarımıza gələn qonaqlar tərəfindən maraqla qarşılanıb. Bu il də elə olacağı şəksizdir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, festivalda 15 kiçik sahibkarlıq subyekti və 304 ailə təsərrüfatı iştirak edəcək. Festivala gələnlərə 23 mindən artıq qablaşdırılmış məhsul təqdim ediləcək.

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Gülcamal TAHİROVA**

## "Gənclər bağı"nda növbəti aksiya təşkil olunub



Bu il Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar muxtar respublikamızda həm ölkə, həm də beynəlxalq səviyyəli tədbirlər keçirilir. Bununla əlaqədar təsdiq olunan tədbirlər planına əsasən həyata keçirilən layihələrdən biri də muxtar respublikanın hər bir bölgəsində yeni "Gənclər bağı"nın salınmasıdır. Həyata keçirilən bu tədbirlər çərçivəsində ekoloji tarazlığın qorunması, yaşıllıqlara qulluq göstərilməsi istiqamətində ardıcıl işlər görülür.

Naxçıvan şəhəri ətrafında salınmış "Gənclər bağı"nda 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə növbəti aksiya təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və tabeliyində olan təşkilatların əməkdaşları, 80-ə yaxın könüllü gəncin iştirakı ilə bağda 500 üzüm və 500 meşə ağacı tingi əkilib. Aksiyada əkilmiş tinglər suvarılıb və ağaclara aqrotexniki qulluq göstərilib. Ərazi alaq otlarından təmizlənib.

Sonda gənclər üçün çay süfrəsi təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Novruzov Tofiq Məsumalı oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1490. Sifariş № 824